Şübhəsiz ki, Allah möminin yaxşı əməlinin savabını silməklə ona zülm etməz, yaxşılığın əvəzini bu dünyada verər və axirətdə də mukafatlandırar

Ənəs bin Məlikdən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Şübhəsiz ki, Allah möminin yaxşı əməlinin savabını silməklə ona zülm etməz, yaxşılığın əvəzini bu dünyada verər və axirətdə də mukafatlandırar, kafiri isə Allah xətrinə etdiyi xeyir əməllərinin dadını bu dünyada daddırar, axirətə gəldikdə isə onun mukafatlanacaq heç bir savabı qalmaz".
[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun), Allahın möminlərə olan əzəmətli lütfünü və kafirlərə qarşı ədalətini bəyan edir. Möminə gəldikdə onun xeyir əməllərinin əcri azalmaz, əksinə bu dünyada itaətinə görə verildiyi savabla yanaşı, axirətdə onun üçün savabı toplanar. Bəzən savabının hamısı axirət üçün saxlanılar. Kafirə gəlincə isə onun etdiyi yaxşılıqların əvəzini , Allah ona dünya nemətləri ilə verər, axirətə yetişdikdə isə onun mukafatlanacaq savabı qalmaz, çünki yalnız müsəlmanın saleh əməlləri ona bu dünyada və axirətdə fayda verər.

https://sunnah.global/hadeeth/az/show/65015

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee